# Qarabağ Azərbaycandır!

***El bilir ki, sən mənimsən,***
***Yurdum, yuvam məskənimsən,***
***Anam, doğma vətənimsən!***
***Ayrılarmı könül candan?***
***Azərbaycan, Azərbaycan!***

**Səməd VURĞUN**

Hörmətli prezidentimiz İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün mətbuat konfransına dair tezisləri nəzərdən keçirərkən 1988-ci ildən bu günümüzə qədər acılı və şirinli xatirələri bir daha xəyalımda canlandırası oldum. Hazırkı Ermənistan ərazisindən – qədim Azərbaycan torpaqlarından, öz dədə-baba yurdlarından didərgin salınmış yurddaşlarımız günahsız yerə təhqir edilmiş, qovulmuş və öldürülmüşlər. “ Böyük Ermənistan ” xülyası ilə yaşayan erməni faşistləri çox keçmədən Xocalı soyqırımı etdilər. Bu elə bir dövr idi ki, ordu yaradılmamış, torpaqlarımızın müdafiəsi təşkil edilməmişdir. Digər tərəfdən də Azərbaycana maymaqlar, səriştəsizlər başçılıq edirdilər. Həm də iqtidar-müxalifət çəkişməsi gedirdi. Düşmənlər isə havadarlarının köməyi ilə bütün strateji yüksəklikləri ələ keçirmiş və orada möhkəmlənmişdilər. Azərbaycanın kənd və şəhərlərini oradan “Qrad ”, top və mina atanlar vasitəsi ilə atəş açaraq insanları vahiməyə salır, qorxu yaradırdılar. Elə bunun nəticəsi idi ki, Kəlbəcər, Xocalı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və başqa ərazilərimiz düşmən taptağı altında qaldı. Əhali didərgin vəziyyətinə düşdü. Çünki ölkə rəhbərliyi yerində deyildi. Dediyimiz kimi ordu qurulmamışdı. Pərakəndə könüllü dəstələr var idi. Onlara da vahid komandanlıq yox idi.

Azərbaycan torpaqlarını işğal etmək üçün uzun müddət hazırlaşan ermənilər həm də dünyaya təbliğatları ilə özlərini “məzlum və zavallı millət”, “köməyə ehtiyacı olan xalq” kimi tanıdırdılar. Azərbaycanlıları isə “qəddar”, “vəhşi”, “zalım və qaniçən” millət kimi təqdim edirdilər.

Sovet Ordusuna arxalanan Ermənistan Azərbaycanın 20 faiz torpağını işğal etdi, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün oldu. 20 min insan şəhid oldu.

1993-cü ildə Ümummilli lider H. Əliyev hakimiyyətə gəldi. Xalqın maraqlarını ifadə edən xarici siyasətini həyata keçirməyə başladı. Uğurlu diplomatik siyasəti ilə Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın torpaqlarını işğal etmələrini beynəlxalq arenaya çıxartdı. BMT Təhlükəsizlik Şurasının müzakirəsində Azərbaycanın ərazi bütövlüyü təsdiq edildi və bir sıra qətnamələr (822, 853, 874, 884 nömrəli) qəbul edildi. O qətnamələrə görə erməni silahlı qüvvələri qeyd-şərtsiz Azərbaycanın ərazisindən çıxmalı, məcburi köçkünlərsə öz dədə-baba yurdlarına qayıtmalı idi. Lakin beynəlxalq təşkilatların və ölkələrin ikili standartlar siyasəti buna imkan vermədi.

Atəşkəsdən ( 12 may 1994-cü ildən ) bir müddət sonra ( 15 oktyabr 2003-cü ildə ) Ali Baş Komandan İlham Əliyev hakimiyyətə gəldi. Ulu öndərin siyasi kursunu davam etdirdi. Ordu quruculuğu gücləndirildi. Qüdrətli ordu yaradıldı. O bu ordunun məğrur sərkərdəsi kimi cəbhə bölgələrinə getdi. Xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Xalqı bir bayraq altında topladı. Belə bir vaxtda ermənilər isə ilk uğurlarından lovğalanır, hətta Dağlıq Qarabağı Ermənistana birləşdirmək istədiklərini də gizlətmirdilər. Həm də deyirdilər ki, yeri gəlsə, Kür çayına qədər əraziləri də ala bilərik.

2016-cı il aprel ayının əvvəllərində Azərbaycanın ön xətt mövqeləri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə tutuldu.Ordumuzun bölmələri əks-hücumla təxribatın qarşısını aldılar.Bu əks-hücum zamanı Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Bu, Aprel döyüşləri ilə tarixə düşdü. Cəmisi 4 gün, yəni aprelin 1-dən 5-nə kimi davam etdi.Aprel döyüşləri göstərdi ki, Azərbaycan iqtisadi, siyasi, mənəvi-psixoloji və hərbi cəhətdən düşmən tərəfdən qat-qat üstündür.

Silahlı münaqişə davam edirdi. Azərbaycan torpaqlarından erməni silahlı qüvvələri çıxmaq istəmir, işğal etdikləri əraziləri darmadağın edir və xarabazarlıqlara çevirirdilər. Meşələri qırır, evləri yandırırdılar. Nəhayət, erməni silahlı qüvvələri bununla da kifayətlənməyib 2020-ci il sentyabrın 27-də səhər saat 06. 00 radələrində Tərtət rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı, Orta Qərvənd, Füzuli rayonunun Mirzənzğılı, Qazaxlar, Əhmədalılar, Alxanlı, Şükürbəyli kəndləri və Horadiz şəhəri, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğuları vasitəsi ilə intensiv atəşə tutmuşlar. Səbir kasası daşmış olan Azərbaycan xalqı və onun Ali Baş Komandanı ATƏT-in və Minski qrupunun on illərlə davam edən səmərəsiz danışıqlarını faydasız bilib silahlı qüvvələri ilə elə həmin gün müxtəlif silahlardan istifadə edərək hücuma keçmiş, düşmənə layiqli cavab vermiş, onları qarşılarında diz çökdürmüşlər.




30 ilə yaxın bir müddət ərzində düşmənin qurduğu bütün istehkamlar Ali Baş Komandanın rəhbərliyi ilə cəmisi 44 günə şanlı Azərbaycan əsgərləri ilə darmadağın edildii. Alqış belə Ali Baş Komandana, alqış belə müzəffər əsgərlərə.

***...Keçdiyin zəfər yolu şanlı soyundan gəlir,***
***Yurdu azad etdikcə qalib səsin yüksəlir.***
***Bayrağım əllərinlə zirvələrə dikəlir,***
***Son baharda yurdumun ilk bahar müjdələri***
***Azərbaycan əsgəri.***
***Ayağın toxunduğu torpaqlarım gül açır,***
***Başı ucalan Vətən günəştək şəfəq saçır,***
***Qarşında tab gətirmir düşmən səngərdən qaçır.***
***Səndən güc alır ellər, uca dağ zirvələri***
***Azərbaycan əsgəri.***

**(Lətif Babayev)**

Ali Baş Komandan müharibə dövründə “hücum diplomatiyasına” da start verdi. Ermənilərin şərböhtan kampaniyasına qarşı mübarizəni daha da gücləndirdi. Apardığı uğurlu siyasət nəticəsində Azərbaycan – Türkiyə qardaşlığı da bu sahədə böyük roi oynadı. Elə bunlara görə də cənnətməkan olan yurd yerlərimiz Ali Baş Komandanın rəhbərliyi və şanlı ordumuzun sarsıdıcı zərbəsi ilə erməni faşistlərindən təmizləndi.

Erməni vandallarının xaraba qoyduqları yurd yerlərimizi bəpa etmək, onu gülzara çevirmək çox vacibdir. Ali Baş Komandanın yerli və xarici media nümayəndələrinə dediyi kimi bunun üçün birinci növbədə yollar çəkilməlidir. Gediş-gəliş üçün quru yollar, həm də hava yolları üçün aeroportlar salınmalıdır. Əlbəttə, bu, inkişafı sürətləndirəcək və regionun tranzit əhəmiyyətini artıracaqdır.

Qarabağda dağılmış evlərin yenidən inşası çox vacibdir. Ancaq bu həm böyük zaman, həm də çox vəsait tələb edir. Mənə elə gəlir ki, bu işdə dost ölkələrdən olan şirkətlər bizə köməyini əsirgəməyəcəklər. Həm də onlar üçün lazımı qədər iş yerləri olacaqdır. Bu quruculuq işləri də Avropa və Asiya ölkələri üçün yeni, səmərəli nəqliyyat yollarının açılmasına səbəb ola bilər. Bu da xalqların bir-birinə yaxınlaşmasına, onların geosiyasi vəziyyətinin müsbət mənada dolğunlaşmasına səbəb ola bilər. Əlbəttə, Böyük Qələbə istər Azərbaycan, istərsə də digər xarici ölkələr üçün böyük səmərə verə bilər. Onu da deyək ki, irimiqyaslı layihə böyük maliyyə vəsaiti tələb edir. Burada milyonlarla dollardan söhbət gedir. Üç hava limanı ( Füzulidə, Laçında və Zəngilanda ), 100 kilometrlərlə dəmiryolu, minlərlə kilometr avtomobil yolu, bütün şəhər və kənd yollarının asfaltlaşdırılması, elektrik və su ilə bağlı işlər, kənd təsərrüfatı işləri, inşaat işləri, xəstəxana, məktəb, idman kompleksi, mədəniyyət ocaqları, insanların evlərə köçürülmələri və sair, doğrudan da, az vəsait tələb etmir.

Qarabağda çoxsaylı iqtisadi potensial mövcuddur. Laçın və Zəngilanda aeroportun tikiləcəyi və bununla əlaqədar investisiya proqramının təsdiqi, eləcə də kənd təsərrüfatının inkişafı üçün işlərin görülməsi, həm də iki iri beynəlxalq şirkətin Qarabağda ümumi həcmi 440 meqavata bərabər günəş və külək elektrik stansiyalarının tikintisinə sərmayə yatırmaq arzusunda olduqlarını bidirilməsi, Qarabağın “ yaşıl enerji “ zonasına çevriləcəyi xalqın xoşbəxt gələcəyindən xəbər vermirmi? Bəli, bu, doğrudan da, belədir.

Ərazilərimizin minalardan təmizlənməsi, Füzuli regionunda beynalxalq hava limanının tikilməsi ölkəmizə çox böyük fayda verəcək. Ən ağır təyyarə və yük təyyarələri də daxil olmaqla bütün növ təyyarələr də qəbul edəcək. Bu da ərazilərimizin yenidən qurulmasına, evlərin bərpasına, “ağıllı kənd” layihəsinin həyata keçirilməsinə şərait yaradacaq. Həm də gələcəkdə ölkəmizə turist axınının güclənməsinə səbəb olacaq. Bütün bunlar Ali Baş Komandanın rəhbərliyi altında olacaq. Əgər Qarabağa yenidən qara əllər uzanarsa, o əllər kəsiləcək, başlar isə prezidentimizin dediyi kimi “dəmir yumruqla” əzıləcəkdir. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun İlham Əliyev kimi Ali Baş Komandanı var. O, ermənilərin faşist, fitnəkar, vəhşi, dağıdıcı və murdar xislətini aşkar ifşa edərək onların “məzlum millət” maskasını cırıb atdı. Tariximizin son beş əsrində İlham Əliyev Azərbaycanın ilk dövlət başçısıdır ki, işğal olunmuş əraziləri geri qaytardı! Arxalı düşməni diz çökdürərək məğlubiyyətini etiraf etdirdi! Biz onun yeni quruculuq işlərini də, irəli sürdüyü hər bir fikrinə də inanırıq. Yaşasın Azərbaycan!

Azərbaycan – qayalarda bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənin könlüm bu torpağı vəsf eyləyərək,
Azərbaycan dünyasından baxar dünyaya.
(M. Araz)

Yaşasın yeni tarix yazan Ali Baş Komandanımız! Qarabağ Azərbaycandır!

***10 mart 2021-ci il.***



***Süleyman ALIYEV,***
***filologiya üzrə fəlsəfə doktoru***